

Sabir GƏNCƏLİ

# Bir-birinə oxşayan, qəribə səslənən

Mədəniyyətimizin inkişafında görkəmli rol oynamış Azərbaycanın maarifpərvər qadınlarının unudulmaz xidmətlərini yada salmaq, ziddiyyətli zamanın "ağ ləkələr"ində itib-batmış sənədləri üzə çıxarmaq, canlı xatirələrini qələmə alıb, gələcək nəsillərə çatdırmaq vəzifəsi ilk dəfə mənə nəsib olduğu üçün qürur hissi keçirirəm.

1956-cı ildən başlayaraq mən Azərbaycan Dövlət Tarix Arxivinin, Azərbaycan Əlyazmalar İnstitutunun, Gəncə və Naxçıvan tarix arxivlərinin, Leninqrad Mərkəzi Dövlət Tarix Arxivinin, Moskva Dövlət Kitabxanasının, S.Şedrin adına Leninqrad Kitabxanasının, AMEA-nın, Azərbaycan Dövlət Universitetinin, M.F.Axundov adına Milli Kitabxananın, Azərbaycan ETPİ-nin, Azərbaycan Partiya Tarixi İnstitutunun kitabxanalarının fondlarını araşdıraraq elmi tədqiqat işləri aparmış, minlərlə sənədi, yüzlərlə dövrü mətbuatı vərəqləyib külli miqdarda material toplamış, repressiya tufanından qurtulmuş və 60-80-ci illərdə sağ olan Azərbaycanın maarifpərvər qadınları olan mədəniyyət xadimləri ilə görüşüb xatirələrini yazmış, şəxsi arxivlərini və başqa mənbələri araşdırmış, bu zəngin materiallar əsasında iki dissertasiya yazmışam. Tədqiqat işimi davam etdirərək, 10 ensiklopedik toplu, irilixırdalı 20 kitab, yüzlərlə elmi və publisistik məqalə, tarixi silsilə oçerklər, sənədli hekayələr üç sənədli povest çap etdirmişəm.

Qadın azadlığı hərəkatının ilk tədqiqatçısı, görkəmli tarixçi Səidə xanım İmanzadə 1967-ci ildə namizədlik dissertasiyamın müdafiəsində elmi işimə yüksək qiymət verərək öz rəyində yazırdı: "Sabir Gəncəli uzun illər sovet rejiminin qadağaları qorxusundan adını belə çəkməyə cürət edə bilmədiyimiz... 200-ə qədər maarifpərvər qadını ilk dəfə öz əsərində diriltmiş, onları mətbuatda dərc etdirdiyi məqalələrində, oçerklərində ictimaiyyətə tanıtmışdır...".

AMEA-nın müxbir üzvü Mahmud İsmayılov Elmi şuranın yığıncağında demişdir: "Sabir tarixşünaslıq elmində yenilik etmiş, mədəniyyət tariximizdə şərəfli rol oynamış ziyalı qadınlarımızı üzə çıxarmış, əsl kəşf etmişdir. Onun bir böyük xidməti də Azərbaycan tarixində böyük xeyriyyəçi kimi tanınan, lakin adını çəkməyə cəsarət etməyən tarixçilərimiz içində ilk dəfə Sabir Gəncəli H.Z.Tağıyevin mədəniyyət sahəsində, xüsusən Azərbaycan qadınlarının maariflənməsi işindəki xidmətlərinə obyektiv qiymət vermiş, azərbaycanlı qızlar üçün məktəb açmasını yüksək qiymətləndirmişdir..."

Respublikamızın böyük alimləri - akademik Ziya Bünyadov, Firidun Köçərli, Cəmil Quliyev, professor Məmməd Qazıyev, Abbas Zamanov, Kamran Məmmədov, Şövkət Tağıyeva, Fəridə Məmmədova, Tamilla Musayeva, Adil Məmmədov, Məhəd Sofiyev və başqaları, ədəbi, elmi ictimaiyyət tədqiqatlarımı maraqla qarşılayırdılar. Doktorluq dissertasiyamın müdafiəsində çıxış edən akademik Cəmil Quliyev deyirdi:

"...Qadın məsələsinin Azərbaycanın taleyüklü bir problemi olduğunu və bunun müstəqil dövlətimizin gələcəyi baxımından qadınların rolu məsələsinin öyrənilməsi işində Sabir Gəncəlinin tədqiqatının böyük əhəmiyyəti var".

Bu fikirlər həqiqət oldu. Tədqiqatlarımın və kitablarımın sorağı ABŞ-dan, Fransadan, Türkiyədən, İrandan, Ərəb ölkələrindən, İngiltərədən, Almaniyadan, Kanadadan gəlir. Qadın məsələsilə məşğul olan neçə-neçə tədqiqatçıya köməyim dəyib. Azərbaycan, rus, ingilis, ərəb dillərində nəşr olunmuş "Tərəqqi yollarında" kitabçalarım Vaşinqton Milli Kitabxanasında özünə yer tutmuşdur. Fars dilində nəşr edilmiş "Azadlığın nuru ilə" kitabçam İrana və Əfqanıstana göndərilmişdir.

65 ildən çox elmi, ədəbi, jurnalistik və pedaqoji fəaliyyətim dövründə nəşr edilmiş əsərlərim haqqında "Azərbaycan", "Respublika", "Kommunist", "Ədəbiyyat qəzeti", "Vışka", "Bakı", "Baku", "Bakinski raboçi", "Azərbaycan müəllimi", "Günay", "Kaspi" və başqa qəzetlərdə, "Azərbaycan qadını" jurnalında elm adamlarının, ziyalıların təqdiredici rəyləri dərc olunmuşdur.

Fəxr edirəm ki, bütün bu milli sərvəti millətim üçün yadigar qoymuşam. Ondan düzgün, ədalətlə istifadə edib yeni-yeni elmi-nəzəri, hətta bədii əsərlər yaratmaq olar. Amma bu istifadə etik qaydalar çərçivəsində ilk mənbəni və müəllifin xidmətini göstərməklə olmalıdır. Təəssüf ki, bəzi müəlliflər bu hüquqi qaydalara əməl etmirlər. Elə bilirlər ki, mənbə göstərsələr onların yazdıqları dəyərsiz olar. Halbuki, əsərdə nə qədər çox mənbə göstərilsə, müəllifin biliyinin zənginliyi görünər.

İllər uzunu çəkdiyim zəhmətin bəhrəsi olaraq ortaya qoyduğum bu zəngin tarixi sənədlər, çap olunmuş hazır materiallar mədəniyyət tariximizin öyrənilməsi işinə həvəs göstərmiş onlarca tədqiqatçının marağına və neçə-neçə elmi işin, dissertasiyanın, kitabın yazılmasına səbəb olmuşdur.

Psixologiya elmləri namizədi, dosent Rəna xanım İbrahimbəyovanın gender məsələlərinə aid tədqiqatları, fəlsəfə elmləri doktoru Zümrüd Quluzadənin 2003-cü ildə Azərbaycan, rus, ingilis dillərində BMT-nin Əhali Fondunun maliyyə dəstəyi ilə nəşr olunmuş "Gender Azərbaycanda" adlı kitabı diqqəti cəlb edir. Bu əsərlər tədqiqat materialları əsasında yazılmış, istifadə olunmuş mənbələr göstərilmişdir. Zümrüd xanım bu əhəmiyyətli kitabın yaranmasında göstərdikləri dəyərli tövsiyələrinə görə mütəxəssis həmkarlarına minnətdarlıq etmişdir.

"Gender Azərbaycanda" kitabına mən də kömək etmişəm. Bu haqda kitabın birinci səhifəsində müəllif xüsusi təşəkkür edərək yazır: "Cənab Sabir Gəncəlinin bu kitabı rəsmlərlə təmin etməkdə nəzərə çarpan rolunu çox yüksək qiymətləndiririk". Ancaq təəssüf ki, Zümrüd xanımın kitabında bizim "Qadın, gözəllik və ülviyyət" ensiklopedik toplu bir mənbə kimi Azərbaycan dilində olan mətndə göstərildiyi halda, ingilis və rus dillərindəki mətnlərdə unudulmuşdur.

Tarix üzrə fəlsəfə doktoru Lətifə Əliyeva "Şimali Azərbaycanda qadınların vəziyyəti" (1900-1922) adlı doktorluq dissertasiyasında özündən əvvəlki müəlliflərin icmalını vermişdir. Bunu nəzərə alaraq həmin elmi iş haqqında mən öz müsbət rəyimi vermişəm.

Hörmətli millət vəkilimiz Məlahət xanım Həsənova mənim qadın azadlığı və təhsili məsələsinə, maarifçilik hərəkatında ziyalı qadınlarımızın xidmətləri haqqında tədqiqatlarıma və mətbuatda işıqlandırmağıma yüksək qiymət verərək, hələ 90-cı illərdə deyirdi: "Sabir müəllim, siz necə də böyük iş görürsünüz". Mənim "Azərbaycan" qəzetində (25-26 may, 2000) dərc etdirdiyim "Dövlətçiliyimizin inkişaf etdirilməsində Azərbaycan qadınlarının rolu" məqaləmə yüksək qiymət verən Məlahət xanım "bu mövzuda gözəl bir elmi iş yazmaq olar" - deyirdi. 2005-ci ildə Məlahət xanım belə mühüm mövzuda elmi iş yazıb Azərbaycan Respublikasının Dövlət İdarəçilik Akademiyasında "Azərbaycan Respublikasında gender siyasətinin həyata keçirilməsində dövlətin rolu" mövzusunda dissertasiya müdafiə edib tarix elmləri namizədi alimlik dərəcəsi aldı.

Bu ərəfədə biz Məlahət Həsənova ilə birlikdə 13 müəllifin iştirakı və Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə Azərbaycan, ingilis dillərində Azərbaycan haqqında yeni bioqrafik məlumat kitabını - "Azərbaycan qadını Ensiklopediyası"nı hazırladıq. 2002-ci ildə nəşr edilmiş, 404 səhifəlik bu kitaba mənim "Qadın, gözəllik və ülviyyət" ensiklopedik toplumdan 120 maarifpərvər qadın haqqında məlumat daxil edildi.

Günlərin birində Məlahət xanım Həsənova həmin "Azərbaycan qadını ensiklopediyası"nı və namizədlik dissertasiyasının avtoreferatının üstünə belə bir avtoqraf - "Görkəmli alim, çox böyük hörmət və rəğbət bəslədiyim gözəl insan, müəllimim, professor Sabir Gəncəliyə müəllifdən. Məlahət Həsənova. 25.05.2006, Bakı" yazıb mənə verdi. Avtoreferatın məzmunundan hiss edilir ki, mənim tədqiqatım və kitablarım bu elmi işin hasilə gəlməsində əhəmiyyətli rol oynayıb. Bunu avtoreferatda yazdığı cümlələr də əks etdirir... "Bu sahədə tarixçi alim, yazıçı Sabir Gəncəlinin (Məmmədov) iki kitabını qeyd edə bilərik. "İşıqlı ömürlər, kövrək talelər" əsərində müəllif XX əsrin əvvəllərində Azərbaycanın maarifpərvər qadınlarından, onların çox mürəkkəb talelərindən, keşməkeşli həyatlarından söhbət açılır. Bu qadınların bir çoxu 30-cu illərin repressiyalarının qurbanı olmuşdur.

Müəllifin "Qadın, gözəllik və ülviyyət" ensiklopedik toplusu da böyük tədqiqatın nəticəsi kimi qadın məsələsinin öyrənilməsində zəngin bir mənbədir...".

Bu səmimi qeydlərinə görə Məlahət xanıma təşəkkür edirəm.

Bax, bu, müəllifə, elmə mədəni münasibətin göstərilməsinin gözəl bir nümunəsidir.

Qadın məsələsi, qadınların ailə və cəmiyyət həyatında, maarif və mədəniyyətimizin inkişafındakı rolu haqqındakı tədqiqatlarım və çap olunmuş kitablarım, elmi-publisistik məqalələrim tarix, fəlsəfə, siyasət, ədəbiyyat, incəsənət, iqtisadiyyat, gender məsələləri sahələrində çalışan tədqiqatçılar üçün geniş mövzu dairəsi və ilkin mənbəyə çevrilmişdir.

Aydındır ki, kitab, əsər, məqalə istifadə üçün yazılır. Ancaq nədənsə, ya təcrübəsizlikdən, ya da bilərəkdən bəzi müəlliflər hazır çap nəşrlərindən gen-bol istifadə edir, ancaq mənbə göstərmirlər. Görünür, onlar izi itirməklə başqa müəlliflərin yazdıqlarını mənimsəyərək, öz imzaları ilə oxuculara təqdim edirlər. Hətta elələri də vardır ki, nəinki, məlum faktlardan istifadəni, hətta bütöv tematikanı götürüb öz imzaları ilə verirlər. Belə insanlar haqqında çoxdan yazmaq istəmişdim. Ancaq insanlıq ləyaqətinə, nüfuzuna əksiklik gələ biləcəyini düşünüb fikrimdən daşınmışdım. Lakin bu qüsurların getdikcə artdığını görəndə bunlara biganə qalmaq olmur. Odur ki, rast gəldiyim, gördüyüm belə çirkin əməllərə qarşı öz narahatlığımı bildirir, mövcud faktları dilə gətirmək istəyirəm.

XIX əsrin axırları-XX əsrin əvvəllərində qadın məsələsinə, qadın azadlığına, H.Z.Tağıyevin ilk qız məktəbinə, qadın təhsilinə aid 20-dən çox elmi iş, kitab, məqalələr yazılıb. Onların müəlliflərinin heç biri gizlində gördüyü işlə əlaqədar bizə müraciət etməyi lazım bilməyib. Onlara diqqət edin: Qasımova A., "Zülmətdə işıq" (2000), "Azərbaycanda ilk qadın mətbuatı: "İşıq" qəzeti" (2010), "XX əsrin əvvəllərində Şimali Azərbaycan mətbuatında qadın mövzusu (1901-1917), Qasımova Ü., Qasımova İ., "Azərbaycanda qadın fəallığının ənənələri (XIX əsrin sonu - XX əsrin əvvəlləri (2006), Mirzəzadə R., "Qadın məsələsi: XX əsrin əvvəlləri və ADR dövründə Azərbaycanda qadın hərəkatı, Azərbaycan ictimai-fikir tarixində gender ideyaları" (2006), Qəhrəmanova S., "XIX əsrin sonu - XX əsrin əvvəllərində qadın məsələsi Azərbaycan ziyalılarının gözü ilə" (2006), Nəcəfli M., "Qadın tarixi: Həmidə Cavanşir" (2006), Cabbarov F., "H.Z.Tağıyevin qız məktəbinin tarixindən" (2011) və b.

F.Cabbarovun kitabında bizim "Qadın, gözəllik və ülviyyət" ensiklopedik toplumuz bir mənbə kimi göstərilir. Amma bu məktəbdə dərs deyən müəllimlərin və təhsil alan qızların bioqrafiyalarını ilk dəfə qələmə alan Sabir Gəncəlinin fikirləri və xidmətləri haqqında bir kəlmə belə deyilmir.

H.Z.Tağıyevin qız məktəbi, eləcə də "İşıq" jurnalı və maarifpərvər qadınlar bizim ilk tədqiqatlarımızdan və mətbuatda çap olunmuş məqalələrimdən asanlıqla istifadə edən müəlliflərin fikir söyləmələri qəribə görünmürmü?!

Görünür, elmi şuralarda mövzuların koordinasiyası yoxdur, ya da buna göz yumulur. Müəllif Hüquqları Agentliyi də bu "istifadələrdən" xəbərsizdir. Halbuki, 14 il əvvəl müəllif hüquqlarımızı qorumaq üçün Azərbaycan Müəllif Hüquqları Agentliyinə müraciət etmişik.

Tədqiqat işləri aparıb tariximizin unudulmaz səhifələrini işıqlandırmaq diqqətəlayiq işdir. Ancaq bu, o zaman təqdir olunur ki, özündən əvvəlki müəlliflərə və onların elmi tədqiqat işlərinə, nəşr olunmuş əsərlərinə hörmətlə, halallıqla yanaşılır, elmdən tələb olunan etik qaydalar gözlənilir.

Ədəbiyyat qəzeti

Təəccüblü haldır ki, bir sıra qəzetlər, televiziya kanalları təbliğ etdikləri cızmaqaraları oxumadan, orada gedən səhvləri görmədən həmin kitab "müəllifləri" ilə müsahibələr verir, təqdimatlar keçirirlər.

2002-ci ildə "Space" televiziya kanalında "Sabah" proqramını aparan Nərgiz Cəlilova haqlı olaraq belə müəlliflərdən biri - Lalə Abbasova ilə müsahibə zamanı mətbuatımızda baş verən bu cür qüsurları tənqid edərkən demişdir: "Sabir Gəncəlinin "Qadın, gözəllik və ülviyyət" ensiklopedik toplusu da, sizin kitabınız da tarixdə qalacaq". Bu eyhamda bir məna vardır. Onun bu fikrinə əlavə olaraq deyirəm: "Zəif, nöqsanlı, məzmunsuz kitab da, yaxşı əsər də tarixdə qalır. Ancaq biri abidə kimi, digəri üzü bəzək, içi boş, suvaqsız bir daxma kimi".

Güman edirdim ki, televiziyada tənqid olunan L.Abbasova da, başqalarının mövzularını, ideyalarını və əsərlərini mənimsəməyə cəhd edən digər "müəlliflər" də, bu tənqiddən bir nəticə çıxararlar. Amma belə olmadı.

L.Abbasovanın Azərbaycan qadınlarına həsr etdiyi nöqsanlarla dolu kitabı, sanki sonrakı "müəlliflər"in əl-qolunu açdı. Bu kitabın qüsurlarının cüzi bir hissəsi haqqında qısaca da olsa danışmaq istəyirəm. Adını ensiklopediya qoyduğu bu kitabın nə əvvəli, nə də sonu bilinmir. Əvvələn, "ensiklopedik toplu" sözü və kitabın ideyası, orada verilən tarixi məlumatların bir hissəsi mənim 1994-cü ildə nəşr olunmuş "Hər sətirdə bir tarix..." adlı ensiklopedik toplu kitabımdan götürmüşdür. L.Abbasovanın kitabında mətnlərdə heç bir elmilik yoxdur. Sadəcə olaraq, yüzlərlə qadının bioqrafiyası və fotoşəkli verilmişdir. Özü də necə?! Bütün məlumatlar eyni cümlə ilə başlayıb, eyni cürə də qurtarır.

Nəfis şəkildə nəşr edilmiş bu kitabın üz qabığında "XX əsr" sözləri yazılmışdır. Ancaq kitabın 6-9-cu səhifələrini açanda Azərbaycanın keçmişindən bir neçə qadın - Mehrican xanım, Tutu Bikə, Xurşid banu Natəvan, Qonçabəyim, Fatma xanım Kəminə, Həcər, Həmidə xanım Cavanşir, Səkinə xanım Axundzadə, Gövhər Qayıbova, Fatma Hacinskaya, Xurşid Vəzirova, Badisabah Köçərli, Məryəm Bayraməlibəyova, Şahnabat Nəsibova və b. haqqında verilmiş mətnlər və fotoşəkillər mənim "Ömürlərdən səhifələr (1973) albomkitabımdan, "Hər sətirdə bir tarix..." (1994) kitabımdan, Azərbaycan Sovet Ensiklopediyasına verdiyim məlumatlardan və fotoşəkillərdən götürülmüşdür...

Bir gün eşitdim ki, Fuad Axundov adda bir nəfər də qadınlar haqqında nəsə yazır.

Bəli, bu adamı da tanıyıram. O, yeni yazmağa başlayanda "Vışka" qəzetinə ilk yazısını verəndə ona məsləhət gördüm ki, istifadə etdiyi materialların mənbəyini göstərsin. ABŞ-da olanda anasını mənim işlədiyim "Azərbaycan qadını" jurnalı redaksiyasına göndərib bir sıra materiallar iştəmişdi. Mən onun ağbirçək anasını hörmətlə qarşılayıb, ona bir neçə material verib, xahiş etdim ki, yazdığı referatın, çap olunmuş məqaləsinin bir nüsxəsini bizə də göstərsin. Anası dedi ki, özüm gətirib verəcəyəm. Amma nə Fuaddan, nə də anasından bir xəbər çıxmadı.

Bir müddətdən sonra televiziyada Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsində Fuad Axundovun H.Z.Tağıyevin ilk müsəlman qız məktəbi haqqında yazdığı kitabının təqdimatı xəbərini eşitdik...

2012-ci ildə televiziyadan Saminə Hidayətqızının "Yüz türk qadını" adlı kitabının təqdimat xəbərini də eşitdik. Sən demə, "Qadın, gözəllik və ülviyyət" ensiklopedik toplum işıq üzü görəndən (2001) bir çox müəllif bu xəzinəyə daraşıb, ondan bir məxəz kimi yarınmışlar.

# mövzular, sərlövhələr

Yadıma bir əhvalat düşdü. 2002-ci ilin bir yaz günü Saminə adlı bir gənc qadın "Azərbaycan qadını" jurnalı redaksiyasına gəlib özünü "İmpuls" qəzetinin müxbiri kimi təqdim etdi və əlindəki qəzeti verib dedi: - Sizin "Qadın, gözəllik və ülviyyət" ensiklopedik toplunuz bizdə xoş təəssürat yaratdı. Bu dəyərli kitab haqqında qəzetimizdə informasiya vermişik. Qəzetin 2002-ci il 19 aprel nömrəsinin 12-ci səhifəsində yazılmışdı: "Qadın, gözəllik və ülviyyət" adlanan bu toplunun müəllifi Sabir Gəncəlidir. Mənə elə gəlir ki, kitabda əks olunan hər bir xanım haqqında məlumat yazıçının qələminin anamıza, vətənimizə, tariximizə olan istəyindən, alovundan sıçrayan qığılcımlardır. Bu kitabı oxuduqca qəlbim fərəhlə dolur. Son zamanların yaratdığı pessimist əhval-ruhiyyədən uzaqlaşıram. Hansı vərəqə əlimi uzadıramsa, əllərim qadın şəxsiyyəti, yüksək mənəvi əxlaqi, sənətkarlığı, ölməz bədii irsindən nümunələrlə dolur, arxam ana adlı bir qalaya söykənir. Saminə".

Belə hissiyyatla toplumuza yanaşan Saminə xanım çox tezliklə ilhama gəlib yüksək qiymətləndirdiyi "Qadın, gözəllik və ülviyyət" ensiklopedik toplusunun müəllifini unudub, onu dilə gətirmədən bu kitabı özünə "yaradıcılıq" mənbəyi seçir. Sanki "nə yoğurdu, nə yapdı, hazırca kökə tapdı" el misalında deyildiyi kimi, əl-qolunu çırmayıb "Qadın, gözəllik və ülviyyət" ensiklopedik toplunun ideyasını və məzmununu mənimsəyib ələk-vələk edərək, özünün müasirlərindən yazdığı bəzi "əlavələri"ni bu materialların gözünə qatıb "Yüz türk qadını" (B.2012) kitabını oxuculara təqdim etmişdir.

*Davamı gələn sayımızda*